# Mirzəyev Mahir Sabir oğlu: 1994-cü il 17 fevral - 2016-cı il 2 aprel



1994-cü ildə 17 fevral tarixində, kiçik çillənin son günlərində Sabir kişinin ailəsində doğulan oğlan uşağına da Mahir adı qoydular. Bu adı da ata seçmişdi. Öz adına uyğun olsun deyə, oğluna Mahir adı qoydu Sabir kişi...

Mahir - yəni məharətli...

Mirzəyev Mahir Sabir oğlu Bakı şəhəri, Abşeron r-nu Fatmayı kəndində dünyaya göz açmışdı. Mahir qeyri-adi bir uşaq idi. Kiçik yaşlarından iti zəkası, dərin düşüncəsi və ağıllı hərəkətləri ilə ətrafdakıları təəccübləndirən Mahir orta təhsilini 2000-2005-ci illərdə doğulduğu kənddə olan məktəbdə, 2005-2011-ci illərdə isə Bakı şəhəri Nərimanov r-nu şəhid Novruzov qardaşları adına 36 saylı orta məktəbdə almışdır. O, məktəbi əla qiymətlərlə bitirib Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olur. 2015-ci ildə ali təhsilini bitirib Qafqaz Universitetinin menecment Fakültəsinin magistr pilləsinə qəbul olunub. Təhsil aldığı müddətdə bir çox uğurları olub, o, türk, ingilis, rus və ərəb dillərini bilirdi.

Mahir vətənini çox sevirdi, o, da Qarabağ uğrunda gedən aprel döyüşlərinə könüllü getmişdi. Torpaq qeyrəti yurd sevgisi qəlbində tügyan edən Mahir cəsarətlə döyüşürdü. Aprel ayının 1-dən 2-nə keçən gecə o, Seysulan, Qapanlı uğrunda gedən döyüşlərdə Mahir qəhrəmancasına şəhid oldu. Onun da nəşini götürmək mümkün olmadı.

Mahir Mirzəyevin də nəşi 8 aprel 2016-cı il tarixində Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsi ilə əldə olunan razılığa əsasən neytral zonada qalan şəhidlərlə birlikdə götürülərək ailəsinə göndərildi. Mirzəyev Mahir Sabir oğlunun cənazəsi 9 aprel 2016-cı il tarixində Binəqədi r-nu Biləcəri qəsəbəsindən böyük izdihamla yola salınaraq, Sabunçu r-nu, Pirşağı qəsəbəsindəki məzarlıqda şəhidlər üçün ayrılmış ərazidə dəfn olundu.

Döyüşdə göstərdiyi qəhrəmanlığa görə Mahir Sabir oğlu Mirzəyev ölümündən sonra Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif olunub.

*Allah bütün şəhidlərə rəhmət eləsin!*

*İki şəhidimz... İki igidimiz... İki Mahirimiz...*

*Atalarının qoyduğu adlara layiq olan Mahirlər...*

*Qısa ömürlərini şərəflə başa vuran iki qəhrəmanımız...*

*Aprel ayının 2-də şəhid olan iki vətən övladı...*

*Altı gün nəşi neytral zonada qalan Mahirlər...*

*Görəsən, onların ruhu bir-birinə nələr pıçıldayırdı?*

*Görəsən, ruhlar bir-birinə necə təsəlli verirdi?*

*Mahirini vətənə qurban verən iki ailə...*

*Allah bütün şəhidlərin əzizlərinə səbr versin.*

*Vətən torpağı daha iki dəyərli, qeyrətli oğullarla zinətləndi!*

*Nur içində yatın!*

*Əziz Mahirlər sizin adınız həmişə vətənlə qoşa çəkiləcək!*

***Gülarə MUNİS,***
***AYB və AJB üzvü.***

Kredo .- 2023.- 13 aprel.- S.14.